2022-ci il

2022, 31 dekabr	Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciət etmişdir.
2022, 30 dekabr	Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak etmişdir.
2022, 29 dekabr	Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak etmişdir.
2022, 28 dekabr	Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak etmişdir.
2022, 27 dekabr	Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında görülən işlərlə tanış olmuş, Qarabağ Atları Kompleksinin təməlini qoymuşdur.
2022, 26 dekabr	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının iclasında iştirak etmək üçün Sankt-Peterburq şəhərində işgüzar səfərdə olmuşdur.** MDB dövlət başçılarının iclasında iştirak etmişdir.
2022, 24 dekabr	Özbəkistan Respublikasının Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Cəmşid Xocayevi qəbul etmişdir. Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuşdur və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüşdür.
2022, 23 dekabr	Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və "Xocəsən" elektrik deposunun açılışında iştirak etmişdir.
2022, 22 dekabr	Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul etmişdir.
2022, 21 dekabr	Ölkəmizə işgüzar səfərə gələn Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olmuşdur. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2022, 19 dekabr	Paytaxtda "The Ritz-Carlton Baku" otelinin açılışında iştirak etmişdir.
2022, 18 dekabr	Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 17 dekabr	**Rumıniyanın Prezidenti Klaus Yohannisin dəvəti ilə Buxarestə işgüzar səfərdə olmuşdur.**

	Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışdır. Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclasda çıxış etmişdir. Rumıniya Prezidenti Klaus Yohannes tərəfindən verilən naharda iştirak etmişdir. Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olmuşdur.
2022, 15 dekabr	Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir.
2022, 14 dekabr	**Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirak etmək üçün Türkmənbaşı şəhərində işgüzar səfərdə olmuşdur.** Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə məhdud tərkibdə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur. Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun adından şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
2022, 13 dekabr	Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etmişdir.
2022, 12 dekabr	Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.
2022, 9 dekabr	Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalar və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.
2022, 8 dekabr	Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.
2022, 7 dekabr	Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

	"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir.
2022, 6 dekabr	Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul etmişdir.
2022, 5 dekabr	Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul etmişdir. Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul etmişdir. Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 2 dekabr	Şəki və Oğuz rayonlarına səfər etmişdir. **Şəki** Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olmuşdur. Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olmuşdur. Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi-qəbiristanlıq kompleksində aparılmış bərpa işləri ilə tanış olmuşdur. Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur. **Oğuz** Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət etmişdir. Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak etmişdir. Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir. "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə tanış olmuşdur. "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olmuşdur. "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoymuşdur. Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

2022, 29 noyabr	Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Türkmənistanın Baş nazirinin ticarət kompleksi üzrə müavini Batır Atdayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Kabinet işləri naziri Məhəmməd bin Abdullah Əl Qərqavini qəbul etmişdir.
2022, 28 noyabr	ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul etmişdir.
2022, 25 noyabr	Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir. Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxış etmişdir.
2022, 24 noyabr	Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul etmişdir.
2022, 23 noyabr	**Serbiya Respublikasında rəsmi səfərdə olmuşdur.** **Belqrad** Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olmuşdur. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü olmuşdur. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç tərəfindən şərəfinə verilən rəsmi lançda iştirak etmişdir. Serbiya Respublikasının Baş naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olmuşdur.
2022, 22 noyabr	Formula 1 Qrupunun idarə heyətinin sədri və prezidenti Stefano Domenikalini və Formula 1 Qrupunun məsləhətçisi Flavio Briatoreni qəbul etmişdir.
2022, 21 noyabr	Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuşu qəbul etmişdir. Rusiya Federasiyasının "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvü, Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Andrey Klimovu qəbul etmişdir. Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) Baş katibi Cho Byunq-jaeni qəbul etmişdir.

	Özbəkistanın Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitovu qəbul etmişdir. Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxış etmişdir.
2022, 18 noyabr	Ölkəmizə səfər edən Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olmuşdur. Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə çay masası əsnasında təkbətək görüşü olmuşdur.
2022, 17 noyabr	Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.
2022, 15 noyabr	**Albaniya Respublikasında dövlət səfərində olmuşdur.** Tiranada Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olmuşdur. Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olmuşdur. Tiranada "Mother Albania" abidəsini ziyarət etmişdir. Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur. Albaniya Respublikasının Baş naziri Edi Rama tərəfindən şərəfinə verilən naharda iştirak etmişdir.
2022, 10-11 noyabr	**Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün Özbəkistan Respublikasına səfər etmişdir.** **Səmərqənd** ***10 noyabr 2022*** Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur. "Əbədi şəhər" kompleksində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimat mərasimində iştirak etmişdir. Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak edən dövlət başçılarının şərəfinə qeyri-rəsmi şam yeməyində iştirak etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

	11 noyabr 2022 Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış etmişdir. Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
2022, 10 noyabr	Avropa Olimpiya Komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul etmişdir.
2022, 8 noyabr	Şuşa şəhərinə səfər etmişdir. Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə çıxış etmişdir.
2022, 7 noyabr	Füzuli rayonuna səfər etmişdir. Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.
2022, 4 noyabr	Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayı qəbul etmişdir. Zirə qəsəbəsində zeytun yağı və süfrəlik zeytun məhsullarının emalı zavodunun açılışında iştirak etmişdir.
2022, 1 noyabr	**Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə Zirvə toplantısında Fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkədə səfərdə olmuşdur.** Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmişdir. Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində çıxış etmişdir.
2022, 31 oktyabr	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfərdə olmuşdur.** Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə arasında ikitərəfli görüş olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur. Azərbaycan-Ermənistan münaqişəsinin normallaşmasına dair Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə Bəyanat imzalamışdır.
2022, 28 oktyabr	Rusiya Federasiyası Baş nazirinin birinci müavini Andrey Belousovu qəbul etmişdir.
2022, 27 oktyabr	BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.

	Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.
2022, 26 oktyabr	Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir. Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkelini qəbul etmişdir.
2022, 24 oktyabr	**Gürcüstanda işgüzar səfərdə olmuşdur.** **Mçxeta rayonu** Muxrani sarayında (Château Mukhrani) Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olmuşdur. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə Muxrani sarayında (Château Mukhrani) "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olmuşdur. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə Muxrani saray kompleksində mədəni proqram tədbirində iştirak etmişdir. Muxrani sarayında Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə işçi naharı etmişdir. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2022, 21 oktyabr	Mərkəzi Klinik Xəstəxanasına gələrək ölkəmizdə səfərdə olarkən yol qəzası keçirən Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırıma, millət vəkili Şamil Ayrıma və mühafizəçi Oğuzhan Dəmirçiyə baş çəkmişdir. Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyevi qəbul etmişdir.
2022, 20 oktyabr	Ölkəmizə rəsmi səfər edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdir. Cəbrayıl şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoymuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoymuşdur. Cəbrayıl şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

	Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2022, 19 oktyabr	Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfər etmişdir. **Cəbrayıl** Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak etmişdir. Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış olmuşdur. "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir. 330/110 kilovoltluq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur. **Qubadlı** Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymuşdur. Qubadlıda 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoymuşdur. "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olmuşdur. **Zəngilan** Zəngilan rayonunun Ağalı kəndində olmuşdur. Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdur. Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində iştirak etmişdir. Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etmişdir. Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak etmişdir.
2022, 12-14 oktyabr	**Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısında və MDB Dövlət Başçılarının iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfər etmişdir.** **Astana** ***12 oktyabr 2022*** Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşü olmuşdur.

	13 oktyabr 2022 Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış etmişdir. AQEM-in Zirvə Toplantısının iştirakçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak etmişdir. İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olmuşdur. MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak etmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur. ***14 oktyabr 2022*** MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir.
2022, 11-12 oktyabr	**Qırğız Respublikasında dövlət səfərində olmuşdur.** ***11 oktyabr 2022*** **Bişkek** “Ata-Beyit” Milli Tarixi-Memorial Kompleksini ziyarət etmişdir. Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclasında iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışında iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun adından şərəfinə verilən rəsmi qəbulda iştirak etmişdir. ***12 oktyabr 2022*** Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılışında çıxış etmişdir. Nizami Gəncəvi adına 103 saylı məktəbin açılış mərasimində iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə “Ala-Arça” Dövlət Təbiət Parkında mədəni proqram tədbirində iştirak etmişdir.
2022, 10 oktyabr	Ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa ilə təkbətək görüşü olmuşdur.

2022, 7 oktyabr	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərində işgüzar səfərdə olmuşdur.** MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak etmişdir. MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.
2022, 6-7 oktyabr	**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqaya səfər etmişdir.** Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olmuşdur. Çex Respublikasının paytaxtı Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclasında iştirak etmişdir. "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda dəyirmi masada iştirak etmişdir. Praqada işçi nahar formatında keçirilən bağlanış plenar iclasında iştirak etmişdir. Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur. Praqada Azərbaycan televiziya kanallarına müsahibə vermişdir. Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə yenidən görüşü olmuşdur.
2022, 4-5 oktyabr	***4 oktyabr 2022*** Ağdam rayonuna səfər etmişdir. Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olmuşdur. Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlini qoymuşdur. Xıdırlı kəndinin təməlini qoymuşdur. Kəngərli kəndinin təməlini qoymuşdur. Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak etmişdir. "City Hotel Agdam" mehmanxanasının təməlini qoymuşdur. Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olmuşdur.

	Keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlini qoymuşdur. Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlini qoymuşdur. Sarıcalı kəndinin təməlini qoymyuşdur. ***5 oktyabr 2022*** Ağdamda BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul etmişdir. Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumunda çıxış etmişdir.
2022, 4 oktyabr	Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysal bin Fərhan Al Səudu qəbul etmişdir.
2022, 3 oktyabr	Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçi qəbul etmişdir. İsrailin müdafiə naziri Benyamin Qansı qəbul etmişdir.
2022, 30 sentyabr – 1 oktyabr	**Bolqarıstan Respublikasına rəsmi səfər etmişdir.** ***30 sentyabr 2022*** Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət etmşdir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olmuşdur. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü olmuşdur. Sofiyada Bolqarıstan Respublikasının müvəqqəti Hökumətinin rəhbəri Qılıb Donevin adından şərəfinə verilən naharda iştirak etmişdir. ***1 oktyabr 2022*** Sofiyada Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olmuşdur. Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşü olmuşdur. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin adından Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində iştirak edən dövlət və hökumət başçıları üçün verilən rəsmi lançda iştirak etmişdir. Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində çıxış etmişdir.
2022, 29 sentyabr	Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu qəbul etmişdir.

2022, 27-28 sentyabr	Füzuli rayonuna və Şuşa şəhərinə səfər etmişdir. ***27 sentyabr 2022*** Fizulidə Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir. Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət etmiş, burada aparılan yenidənqurma və bərpa işləri ilə tanış olmuşdur. ***28 sentyabr 2022*** Şuşada yeni inşa olunan bir sıra obyektlərdə işlərin gedişi ilə tanış olmuşdur. Şuşa şəhərində inşa edilən yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Şuşa şəhərində hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə tanış olmuşdur. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə tanış olmuşdur. Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanış olmuşdur. Şuşada təmir və bərpa edilən hoteldə görülən işlərlə tanış olmuşdur. Şuşa şəhərində 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətinin inzibati binasında bərpa işlərinin gedişi ilə tanış olmuşdur.
2022, 26 sentyabr	Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 22 sentyabr	Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul etmişdir.
2022, 21 sentyabr	Laçın rayonuna səfər etmişdir. Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olmuşdur. Laçın şəhərində Azərbaycan Bayrağını ucaldılması mərasimində çıxış etmişdir. “Laçın” Qovşaq Yarımstansiyasının təməlini qoymuşdur.
2022, 15-16 sentyabr	**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində iştirak etmək üçün Səmərqəndə səfər etmişdir.**

	15 sentyabr 2022 Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət etmişdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur. Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olmuşdur. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində iştirak edən dövlət və hökumət başçıları ilə birgə Səmərqənddə Konqres Mərkəzinin həyətində ağac əkmişdir. ***16 sentyabr 2022*** Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif ilə görüşü olmuşdur. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində çıxış etmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
2022, 14 sentyabr	Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir. Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə regional vitse-prezidenti Anna Byerdeni qəbul etmişdir.
2022, 13 sentyabr	Ermənistan–Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı vermək üçün Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyində olmuşdur. ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul etmişdir.
2022, 10 sentyabr	Abşeron rayonunun Saray qəsəbəsində yeni inşa edilən 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur. Bakının Binəqədi rayonunda yeni inşa olunan 335 nömrəli tam orta məktəbin açılışında iştirak etmişdir.
2022, 8 sentyabr	Bakıda professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

	Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olmuşdur. Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.
2022, 6 sentyabr	Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olmuşdur.
2022, 3 sentyabr	Dünya və Avropa Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul etmişdir.
2022, 31 avqust-2 sentyabr	**İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfər etmişdir.** ***1 sentyabr 2022*** **Roma** Azərbaycan Respublikasının İtaliya Respublikasındakı səfirliyinin yeni binasının açılışında iştirak etmişdir. İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşü olmuşdur. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimində çıxış etmişdir. İtaliya Respublikası Nazirlər Şurasının Sədri Mario Draqi ilə təkbətək görüşü olmuşdur. ***2 sentyabr 2022*** **Çernobbio** Səudiyyə Ərəbistanının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşü olmuşdur. İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Boncorniyə müsahibə vermişdir. "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda çıxış etmiş və xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırmışdır.
2022, 31 avqust	**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir.** Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.
2022, 25 avqust	Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Busan şəhərinin "Ekspo 2030" Ümumdünya Sərgisinə ev sahibliyinə namizədliyini dəstək üzrə Xüsusi Komitənin sədri So Byoq Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2022, 24 avqust	Ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə rəsmi ziyafət vermişdir. Azərbaycan Respublikasının prezidentinin təltif edildiyi "Altın kıran" – "Qızıl qartal" ali ordenini Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev təqdim etmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olmuşdur.
2022, 22 avqust	V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşdə çıxış etmişdir.
2022, 17 avqust	Bakının Dənizkənarı Milli Parkında dünyaşöhrətli müğənni Müslüm Maqomayevin abidəsinin açılışında çıxış etmişdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünyaşöhrətli müğənni Müslüm Maqomayevin xatirə gecəsində çıxış etmişdir.
2022, 15 avqust	Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul etmişdir.
2022, 12 avqust	Qobustan, İsmayıllı və Ağsu rayonlarına səfər etmişdir. Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olmuşdur. İsmayıllı rayonunda "Basqal Resort & Spa" otelinin açılışında iştirak etmişdir. İsmayıllı rayonunda "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olmuşdur. İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə vermişdir. Ağsu şəhərinin mərkəzində ucaldılan ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir.

	Ağsu rayonunda "Ağsu Aqropark" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanış olmuşdur. Ağsu şəhərindəki Bayraq meydanında Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir.
2022, 10 avqust	Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul etmişdir.
2022, 9-10 avqust	**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfər etmişdir.** ***9 avqust 2022*** **Konya** V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşü olmuşdur. Fələstin Dövlətinin Baş naziri MohammedŞtayyehi qəbul etmişdir. Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul etmişdir. V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə verilən şam yeməyində iştirak etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə arasında görüşü olmuşdur. V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində iştirak etmişdir.
2022, 29 iyul	Paytaxtın Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.
2022, 25 iyul	Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul etmişdir.
2022, 21 iyul	***Bakı*** Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə təkbətək görüşü olmuşdur. Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə geniş tərkibdə görüşü olmuşdur.
2022, 20 iyul	Sumqayıt şəhərinə səfər etmişdir. Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir. Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak etmişdir. Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur. 2 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak etmişdir.

2022, 19 iyul	Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul etmişdir. Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul etmişdir.
2022, 18 iyul	***Bakı*** Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə birgə Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalamışdır. Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə görüşü olmuşdur. Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2022, 15 iyul	Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir. İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxanini qəbul etmişdir. 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə nitq söyləmişdir.
2022, 6 iyul	Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olmuşdur.
2022, 30 iyun	Türkiyə Böyük Millət Məclisinin sədrini qəbul etmişdir. Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancranini qəbul etmişdir. Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul etmişdir. Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında çıxış etmişdir.
2022, 29 iyun	**Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfər etmişdir.** ***Aşqabad*** Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olmuşdur. İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur. Xəzəryanı dövlətlərin dövlət başçılarının şərəfinə verilən rəsmi qəbulda iştirak etmişdir.

	Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxış etmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
2022, 27 iyun	İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul etmişdir. Polşanın Katovitse şəhərində keçirilən Ümumdünya Şəhər Forumunun 11-ci sessiyasında videoformatda çıxış etmişdir.
2022, 26 iyun	Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər etmişdir. Göygöl rayonunda inşa edilən iki tunelin tikintisi ilə tanış olmuşdur. Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak etmişdir. Kəlbəcər rayonunda hərbi hissənin açılışında iştirak etmişdir. Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olmuşdur. Laçında "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olmuşdur. Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olmuşdur. Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olmuşdur. Kəlbəcər şəhərinin Baş planı ilə tanış olmuşdur. İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoymuşdur. Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoymuşdur. Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməlini qoymuşdur. Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində çıxış etmişdir.
2022, 24 iyun	BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul etmişdir.
2022, 23 iyun	Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul etmişdir. Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

2022, 21-22 iyun	**Özbəkistan Respublikasına dövlət səfəri etmişdir.** ***21 iyun 2022*** **Daşkənd** Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Müstəqillik abidəsini ziyarət etmişdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olmuşdur. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olmuşdur. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Heydər Əliyev Meydanının açılış mərasimində çıxış etmişdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə "Kuksaroy" dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkmişdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə "TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanış olmuşdur. "Kuksaroy" dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir. ***22 iyun 2022*** Ürgənc şəhərinə səfər etmişdir. **Xivə** Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə "Nurullaboy" saray kompleksi ilə tanış olmuşdur. İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olmuşdur. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən şərəfinə təşkil edilmiş qəbulda iştirak etmişdir.
2022, 17 iyun	Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu qəbul etmişdir. Ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşü olmuşdur. BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.

	Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti qəbul etmişdir. İsrailin sabiq Baş naziri Ehud Barakı qəbul etmişdir. Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul etmişdir.
2022, 16 iyun	Ölkəmizə səfər edən Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşü olmuşdur. Ölkəmizə səfər edən Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşü olmuşdur. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşü olmuşdur. Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul etmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir. "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunda nitq söyləmişdir.
2022, 15 iyun	ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul etmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.
2022, 14 iyun	Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul etmişdir.
2022, 10 iyun	Bakıda "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
2022, 8 iyun	Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olmuşdur.
2022, 6 iyun	Bakıda "Şərq Bazarı" kompleksində bərpa və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
2022, 1 iyun	Serbiya Baş nazirin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul etmişdir. Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində çıxış etmişdir.
2022, 31 may	ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul etmişdir.

2022, 28 may	Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında iştirak etmişdir. Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə çıxış etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
2022, 26-27 may	Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər etmişdir. ***26 may 2022*** Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olmuşdur. Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlini qoymuşdur. "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlini qoymuşdur. Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. İşğal və Zəfər muzeylərinin təməlini qoymuşdur Zəngilan şəhərin Baş planı ilə tanış olmuşdur. ***27 may 2022*** Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olmuşdur. Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etmişdir.
2022, 25 may	Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 24 may	Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul etmişdir. Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul etmişdir.

2022, 22-23 may	**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir.** ***22 may 2022*** Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.
2022, 20 may	ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.
2022, 19 may	Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 18 may	Ölkəmizə rəsmi səfər edən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olmuşdur. Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausedienenin şərəfinə rəsmi ziyafət vermişdir. Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olmuşdur. Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes forumunun açılışında çıxış etmişdir.
2022, 17 may	İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul etmişdir.
2022, 16 may	Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı vermək üçün Birləşmiş Ərəb Əmirliklərinin Bakıdakı səfirliyində olmuşdur. Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 14 may	**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə həmin ölkəyə işgüzar səfər etmişdir.** Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etmişdir.
2022, 12 may	Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalında iştirak etmişdir.
2022, 10 may	Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etmişdir. Füzuli və Şuşa şəhərlərinə səfər etmişdir.

	Füzuli Füzuli şəhərində Peşə Liseyinin təməli qoymuşdur. Füzuliyə səfəri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkmişdir. Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməlini qoymuşdur. ***Şuşa*** Şuşadakı inzibati binada və Şirin su hamamında aparılan bərpa işləri ilə tanış olmuşdur. Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olmuşdur. Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olmuşdur. Şuşaya səfər çərçivəsində "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olmuşdur. Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olmuşdur. Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
2022, 9 may	İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoymuş, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır. Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 6 may	BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul etmişdir.
2022, 4 may	Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.
2022, 2 may	Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul etmişdir. Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışında iştirak etmişdir. Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbin açılışında iştirak etmişdir.
2022, 30 aprel	ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

	Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olmuşdur. Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir.
2022, 29 aprel	ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir. Ramazan bayramı münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.
2022, 28 aprel	Bakı gəmiqayırma zavodunda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etmişdir. NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul etmişdir.
2022, 27 aprel	Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul etmişdir. Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 26 aprel	Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul etmişdir. Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul etmişdir.
2022, 25 aprel	İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul etmişdir. Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul etmişdir. Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 21-22 aprel	***22 aprel 2022*** Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında nitq söyləmişdir. ***21 aprel 2022*** Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin, Şuşada inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olmuşdur. Fizuli və Şuşa rayonlarına səfər etmişdir.
2022, 20 aprel	Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olmuşdur.

	Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə geniş tərkibdə görüşü olmuşdur. Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarovanın şərəfinə rəsmi ziyafət vermişdir.
2022, 19 aprel	Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 15 aprel	Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul etmişdir. Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul etmişdir.
2022, 14 aprel	Ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.
2022, 12 aprel	Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə giriş nitqi söyləmişdir.
2022, 11 aprel	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak etmişdir.
2022, 8 aprel	Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul etmişdir.
2022, 6 aprel	**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir.** ***Brüssel*** Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olmuşdur.
2022, 5 aprel	İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul etmişdir.
2022, 4 aprel	Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul etmişdir.
2022, 2 aprel	İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2022, 31 mart	Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 30 mart	Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul etmişdir.
2022, 29 mart	Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olmuşdur.
2022, 28 mart	Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak etmişdir.
2022, 20 mart	Tərtər rayonunun Suqovuşan qəsəbəsinə səfər etmişdir. "Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatında iştirak etmişdir. Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olmuşdur. Qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binası ilə tanış olmuşdur. Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoymuşdur. Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışında iştirak etmişdir. Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoymuşdur. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışında iştirak etmişdir. Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırmış və sonra Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
2022, 17 mart	23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul etmişdir.
2022, 15 mart	Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Gülüstan sarayında Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxış etmişdir.
2022, 11 mart	Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

	İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 10 mart	**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfər etmişdir.** Ankarada Çankaya Köşkündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur.
2022, 9 mart	Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul etmişdir.
2022, 5 mart	Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir. BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul etmişdir. Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.
2022, 3 mart	Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir. Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlini qəbul etmişdir.
2022, 2 mart	Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu və strateji layihələr üzrə xüsusi nümayəndə Ana Birçalı videoformatda qəbul etmişdir.
2022, 26 fevral	Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşündə iştirak etmişdir.
2022, 25 fevral	BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin videoformatda çıxış etmişdir.
2022, 24 fevral	Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Moldova parlamentinin sədri İqor Qrosu ilə videoformatda görüşmüşdür.
2022, 21-23 fevral	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına rəsmi səfər etmişdir.** ***22 fevral 2022*** Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət etmişdir. Rusiya dövlətinin başçısı ilə təkbətək görüşü olmuşdur.

	Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalamışdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olmuşdur. ***23 fevral 2022*** TASS agentliyində Azərbaycan-Rusiya əməkdaşlığına həsr edilmiş sərgi ilə tanış olmuşdur. TASS agentliyində Rusiyanın aparıcı KİV-lərinin rəhbərləri ilə görüşmüşdür.
2022, 21 fevral	Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 18 fevral	Coşqun Cəbrayılovu Bakının Nizami, Elgin Həbibullayevi Nərimanov və Elxan İbrahimovu Kürdəmir rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.
2022, 13 fevral	Ağdam və Ağcabədi rayonlarına səfər etmişdir. ***Ağdam*** "Ağdam-1", "Ağdam-2" yarımstansiyaları və "Qarabağ" Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir. Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Ağdam şəhərində inşa olunacaq "Park Forest Otel Ağdam" mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak etmişdir. 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməli qoymuşdur. Cümə məscidində bərpa işlərinin gedişi ilə tanışlıqdan sonra çıxış etmişdir. Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlini qoymuşdur. Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olmuşdur. Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmuşdur. ***Ağcabədi*** Ağcabədi şəhərinin mərkəzində ucaldılmış ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmişdir.

	"Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olmuşdur. Yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının açılışını etmişdir. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak etmişdir. Ağcabədi rayonunda Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
2022, 11 fevral	"Qobu" Enerji Qovşağının açılışında AZƏRTAC-a müsahibə vermişdir.
2022, 10 fevral	Ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul etmişdir.
2022, 8 fevral	Yenidən qurulan 330 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak etmişdir.
2022, 4 fevral	Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında çıxış etmişdir. Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüşü olmuşdur.
2022, 2 fevral	Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda çıxış etmişdir.
2022, 30 yanvar	Gəncə şəhərində səfərdə olmuşdur. Ümummilli lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir. Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak etmişdir. 2 saylı Gəncə regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak etmişdir. Gəncə İdman Sarayında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. "Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposunun açılışında iştirak etmişdir. Gəncə Memorial Kompleksinin təməlini qoymuşdur. Səfər çərçivəsində AZƏRTAC-a müsahibə vermişdir.

2022, 28 yanvar	Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul etmişdir.
2022, 27 yanvar	Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksinin açılışında iştirak etmişdir.
2022, 25 yanvar	İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovaya "İstiqlal" ordenini təqdim etmişdir.
2022, 20 yanvar	20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət etmişdir. Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.
2022, 18 yanvar	Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında çıxış etmişdir.
2022, 17 yanvar	Monteneqro parlamentinin sədri Aleksa Beçiç ilə videoformatda görüşü olmuşdur.
2022, 15 yanvar	Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2022, 14 yanvar	**Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfər etmişdir.** ***Kiyevdə*** Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək görüşü olmuşdur. Ukrayna Prezidenti Volodimir Zelenski ilə geniş tərkibdə görüşü olmuşdur. Ukrayna Prezidenti Volodimir Zelenskinin adından şərəfinə verilən lançda iştirak etmişdir. Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatlarla çıxış etmişdir.
2022, 13 yanvar	Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxış etmişdir.
2022, 12 yanvar	Yerli televiziya kanallarına müsahibə vermişdir.
2022, 6 yanvar	Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.